**Əlövsət Qaraca oğlu Əliyev**

**UOT: 330:002.6; JEL: O33.**

# Milli iqtisadi inkişafın inklüzivlik səviyyəsinin qiymətləndirilməsi məsələləri

***Xülasə***

*Məqalə milli cəmiyyətin və iqtisadiyyatın inkişafının inklüzivliyinin mahiyyətinə, onun qiymətləndirilməsi və yüksəldilməsi məsələlərinə həsr olunmuşdur. Məqalədə, cəmiyyətin və iqtisadiyyatın inklüziv inkişafının əhəmiyyəti və xüsusiyyəti şərh olunmuş, inklüziv inkişaf problemləri üzrə mövcud elmi-tədqiqat işlərinin analizi aparılmışdır. Cəmiyyətin və iqtisadiyyatın formalaşması səviyyəsinin milli və beynəlxalq səviyyədə inklüziv qiymətləndirilməsi məsələləri araşdırılmışdır. Cəmiyyətin inklüziv inkişafını xarakterizə edən yeni indikatorlar və subindekslər təklif olunmuşdur. Azərbaycanda milli inklüziv inkişaf indeksinin beynəlxalq səviyyədə qiymətləndirilməsi məsələləri təhlil olunmişdur. İnklüzivlik səviyyəsinin qiymətləndirilməsinin metodoloji əsasları şərh olunmuş və müvafiq metodika işlənilmişdir. İqtisadi inkişafın inklüzivlik səviyyəsinin yüksəlməsinə təsir edən amillər göstərilmiş və bəzi tövsiyələr verilmişdir.*

***Açar sözlər:*** *iqtisadi inkişafın inklüzivliyi, iqtisadi artım, inklüzivlik səviyyəsi və indeksi, inklüzivlik göstəriciləri, inklüzivliyin qiymətləndirilməsi, inklüzivlik problemləri*

## Giriş

Müasir ölkələrin əsas inkişaf istiqamətləri informasiya və biliklər iqtisadiyyatının formalaşmasına yönəlmişdir. Biliklər cəmiyyətinin və iqtisadiyyatının formalaşmasında bütün vətəndaşların, xüsusilə də maddi və fiziki cəhətdən daha çox müdafiəyə ehtiyacı olanların maraqları nəzərə alınmalıdır. Biliklərə əsaslanan iqtisadiyyat cəmiyyət üzvlərinin hər birinin fəaliyyətindən asılıdır. Bilikli, təhsilli və bacarıqlı vətəndaşlar ölkənin inkişafına, rifah və əmin-amanlığına daha çox fayda verə bilərlər. Cəmiyyətdə inkişafın inklüzivlik səviyyəsinin yüksəldilməsində ən müasir innovativ texnologiyalardan maksimum yararlanmaq mühüm məsələ hesab olunur [1]. Bu prosesin idarə olunması üçün onun təhlili, ölçülməsi, qiymətləndirilməsi problemlərinin tədqiqi və metodiki-metodoloji əsaslarının işlənilməsi çox aktualdır və xüsusi əhəmiyyətə malikdir.

## Problemin qoyuluşu və problem üzrə tədqiqat işlərinin analizi

Cəmiyyətin və iqtisadiyyatın inklüzivliyinə xüsusilə cəmiyyətin müəyyən fiziki qüsuru olan üzvlərinin işləyə bilmək, təhsil almaq, fəaliyyət göstərmək, idarəetmə proseslərində iştirak etmək, normal əmək haqqı almaq, normal yaşamaq, tibbi yardım almaq, özünü müdafiə edə bilmək, bir sözlə cəmiyyətə inteqrasiya oluna bilmək kimi bir çox kompleks xarakterli məsələlər aiddir. Bu məsələlər ayrı-ayrılıqda inklüziv təhsil, inklüziv elm, inklüziv tibb, inklüziv mədəniyyət, inklüziv ədəbiyyat, inklüziv informasiya vasitələri, inklüziv idman və s. kimi müvafiq inklüziv inkişaf istiqamətində həll olunur [2]. İqtisadiyyatın inklüzivliyi Ümumi Daxili Məhsulun (ÜDM) həcminin artmasına səbəb olur. Dövlət səviyyəsində institutsional mexanizmlər, inklüziv normativlər, inklüziv infrastruktur, inklüziv idarəetmə vasitələri işlənilir və qəbul edilir. Bunlar isə fərdi, müəssisə, regional, sahə və ümumdövlət səviyyəsində inklüziv idarəetmə proseslərinə müsbət təsir edir və cəmiyyətin inklüzivlik səviyyəsini yüksəldir [3].

Hazırkı dövrdə ölkədə inklüziv aspektdə iqtisadiyyatda yeni inkişaf meylləri və istiqamətləri təhlil olunmalıdır. Həmin meyllərlə qarşılıqlı əlaqədə olan cəmiyyətin və iqtisadiyyatın inklüziv inkişafının əhəmiyyətliliyi əsaslandırılmalıdır. İnklüziv cəmiyyətin və

*©Əlövsət Qaraca oğlu Əliyev i.f.d. dos., AMEA İnformasiya Texnologiyaları İnstitutu, şöbə müdiri,*
*E-mail: alovsat_qaraca@mail.ru*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

iqtisadiyyatın formalaşması səviyyəsinin regional-sektorial, milli və beynəlxalq qiymətləndirilməsi məsələlərinin mahiyyəti şərh edilməlidir. Qiymətləndirmələrin aparılması üçün zəruri olan göstəricilər müəyyənləşdirilməlidir. Həmin göstəricilər qruplaşdırılmalı və müvafiq subindekslər işlənilməlidir. Eyni zamanda iqtisadi inkişafın inklüzivlik səviyyəsinin yüksəldilməsinə təsir edən amillər araşdırılmalıdır.

Cəmiyyətin və iqtisadiyyatın inklüziv inkişafının mövcud elmi-nəzəri əsasları və texnoloji xüsusiyyətləri 2019-cu ilin əvvəllərinə qədər yüksək səviyyəli elmi bazalara, xüsusən WOS-a daxil olan əsas elmi məqalələr əsasında təhlil olunmuşdur. Məlum olmuşdur ki, hazırkı iqtisadi sistemlər və onların əsaslandığı iqtisadi nəzəriyyələr müasir dövrün tələblərinə heç də tam cavab verə bilmir [4-6]. Bu isə iqtisadiyyatın elmi-nəzəri əsaslarına yeni baxışı zərurətə çevirmişdir. Hazırkı dövrdə mövcud araşdırmalar təsdiq edir ki, İnformasiya iqtisadiyyatının formalaşmasının texniki, texnoloji, institusional, humanitar aspektdən müvafiq inkişaf konsepsiyaları nəzəriyyələri işlənilməlidir [7]. Yaşıl inkişafa, inklüzivliyə, rəqəmsallaşmaya, bilik və texnoloji əsaslı sahibkarlığa normal şərait yaradan, cəmiyyətin formalaşmasına, həm indiki, həm də gələcək nəsillərin qayğısına qalan, dayanıqlı iqtisadiyyatın qurulmasına və həmin aspektdə yaranan problemlərin həllinə yol göstərə bilən yeni iqtisadi nəzəriyyələr, konsepsiyalar, inkişaf proqramları və strategiyaları işlənilməlidir [8]. Qeyd olunmalıdır ki, [9]-da da resurs əsaslı iqtisadiyyatın artıq nə praktiki, nə də nəzəri cəhətdən cəmiyyətin mövcud problemlərinə cavab verə bilmədiyi qeyd olunur. Çıxış yolu kimi dayanıqlı və inklüziv inkişaf konsepsiyasının işlənilməsi göstərilir. [10]-da göstərilir ki, inklüziv inkişafa çoxları siyasi yanaşmalar əsasında iqtisadi artımla sosial aspektlərin sintezi kimi baxır. [11]-də inklüziv inkişafda multi dissiplinar yanaşmalara önəm verilir [12]-də inklüziv yaşıl artım iqtisadi inkişafı, sosial ədaləti, ətraf mühitin mühafizəsini təmin edən dayanıqlı inkişaf vasitəsi kimi təqdim etmişdir. [13]-də göstərilir ki, müasir dövrdə inklüziv inkişaf hibrid sahə kimi kommersiya və qeyri-kommersiya təşkilatları arasında əməkdaşlıq üçün ekspermental platforma yaradır. [14]-də hesab olunur ki, zəruri proqnoz məlumatlarından istifadə innovasiya sistemlərinin daha çox inklüziv olmasına imkan yarada bilər. [15] Bolqariya, Xorvatiya, Estoniya, Macarıstan, Polşa, Ruminiya və s. kimi Mərkəzi və Şərqi Avropa ölkələrində inklüziv iqtisadi artım problemlərinə həsr olunmuşdur. [16]-da Cənubi-Şərqi Asiyada inklüziv innovasiyaların inkişafında regional koordinasiya mexanizmlərinin rolu araşdırılmış və onların təkmilləşdirilməsi üzrə bir sıra istiqamətlər göstərilmişdir.



Ukraynanın istehlak kooperasiyası sisteminin inklüziv aspektdə inkişafı məsələlərinə [17]-da baxılmışdır. [18]-də iqtisadi böhran şəraitində Ukrayna regionlarının inklüziv inkişafının dayanıqlılığı məsələləri təhlil olunmuşdur. [19] Rusiyada inklüziv cəmiyyətin və iqtisadiyyatın formalaşmasında sənayenin inkişaf faktorlarına həsr olunmuşdur. Rusiyada inklüziv inkişaf indeksinin təhlilinə həsr olunan [20]-də göstərilir ki, bu cür inkişafın nəzəri əsaslarını həm xarici alimlərin işləri, həm də Dünya İqtisadi Forumunun (DİF), Beynəlxalq Bankın (BB) qiymətləndirmə metodları və tövsiyələri təşkil edir. Məqalədə vurğulanır ki, inklüziv inkişaf dünya ictimaiyyətinin, o cümlədən BMT-in əsas prioritetlərindən biri hesab olunur. Bu sahə üzrə minlərlə alim, dövlət və vətəndaş təşkilatları məşğuldur. Ona görə də hesab etmək olar ki, ölkədə də milli inklüziv inkişaf üzrə strategiyanın yaradılması istiqamətində müvafiq addımlar atılmalıdır.

**İnklüzivlik səviyyəsinin qiymətləndirməsinin zəruriliyi**

İnklüziv inkişaf səviyyəsinin ölçülməsi üzrə kompleks göstərici təkcə iqtisadi artımı deyil, həmçinin onun dayanıqlığını, davamlılığını, sosiallığını, texnolojiliyini göstərmiş olur. İnklüziv iqtisadiyyat və inklüziv iqtisadi artım məsələləri bir çox Beynəlxalq Valyuta Fondu (BVF), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Avropa Rekonstruksiya və İnkişaf

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Bankı (ARİB), BB kimi beynəlxalq iqtisadi təşkilatların əsas sənədlərində əks olunmuşdur. Bu problemlər onların əsas işçi orqanlarında dəfələrlə müzakirə edilmişdir.

ÜDM-ə alternativ kimi işlənilmiş İİİ (inklüziv inkişaf indeksi) müasir dövrün siyasəti üçün ölkələrin iqtisadi inkişafını daha dəqiq ifadə edir. Beynəlxalq metodologiyaya görə ölkə iqtisadiyyatları iki hissəyə ayrılır: – inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin 2018-ci il məlumatları əsasında ölkələrin fərdi qiymətləndirmələri svetafor prinsipində (pis-qırmızı, orta-sarı, yaxşı-yaşıl) iqtisadiyyatı verilmişdir. ÜDİF-in işləmiş olduğu beynəlxalq metodologiyaya müvafiq olaraq İnklüziv İnkişaf İndeksinin mahiyyəti üç əsas altindeksdən ibarətdir [21].

Cəmiyyətin, eləcə də iqtisadiyyatın inklüzivliyi dövlət tərəfindən daimi olaraq diqqətdə saxlanılan bir prosesdir. Onu tənzimləmək üçün müntəzəm olaraq qiymətləndirmək zəruridir. Qiymətləndirmə beynəlxalq, milli, regional və sektorial aspektlərdə ola bilər. Müqayisəli qiymətləndirmələr zamanı təklif olunur ki, ölkələr/dövlətlər ÜDİF-in təklif etdiyi kimi iki yox, üç qrupa ayrılsın. Qiymətləndirmə ayrı-ayrılıqda aparılsın. Birinci qrupda ən çox inkişaf etmiş və böyük ÜDM-ə malik ölkələr (30) daxil edilməlidir. İkinci qrupda orta inkişaf etmiş, üçüncü qrupda isə zəif inkişaf etmiş ölkələr daxildir. Milli inklüzivlik səviyyəsinin qiymətləndirilməsi isə bir neçə alt səviyyədə və aspektdə həyata keçirilə bilər:

- I səviyyə – ümumdövlət, cəmiyyət və ya makro səviyyədə inklüzivlik;
- II səviyyə – regional və ya ayrı-ayrı şəhər və rayonların inklüzivliyi;
- III səviyyə – sahələrarası və ya sahə inklüzivliyi;
- IV səviyyə – özəl bölmədə, qeyri-dövlət strukturlarında inklüzivlik;
- V səviyyə – qeyri-dövlət və dövlət idarəetməsində inklüzivlik;
- VI səviyyə – mikro və ya müəssisələr, istehsal səviyyəsində inklüzivlik;
- VII səviyyə – evlərdə, ailələrdə fərdi inklüzivlik.

Ayrı-ayrı hallarda bu səviyyələrə uyğun müxtəlif göstəricilər və rəsmi statistika mövcuddur. Ancaq onlar prosesi tam əhatə etmir və inklüzivliyin kompleks qiymətləndirilməsinə imkan yaratmırlar. Ona görə də hər bir səviyyədə müasir iqtisadi siyasəti əks etdirən uyğun yekun sub-indeks və həmin sub-indeksi formalaşdıran alt göstəricilər və indikatorlardan ibarət yeni sistemin (şəkil 1) işlənilməsinə ehtiyac vardır. Bu istiqamətdə AMEA İnformasiya Texnologiyaları İnstitutunda araşdırmalara başlanılmışdır [22]. Ümumi qaydada milli səviyyədə inklüzivliyin qiymətləndirilməsinə təklif etdiyimiz metodoloji yanaşmamamızın mahiyyəti aşağıdakı konseptual mərhələ, blok və alqoritmə əsaslanmışdır.

- I səviyyə növbəti II və III səviyyələrdə alınan qiymətləndirmələr nəticəsində formalaşdırılır.
- II və III səviyyələrdəki inklüzivlik bir-birinə həm alternativ, həm də müstəqil olaraq müvafiq regional və ya sahə səviyyəsində qiymətləndirilir.
- IV-VII səviyyələrdəki qiymətləndirmələr lokal əhəmiyyətli olaraq ayrı-ayrı təşkilatlar, müəssisələr, firmalar, şirkətlər, idarəetmə strukturları, evlər, təsərrüfatlar səviyyəsində həyata keçirilir. Eyni zamanda həmin səviyyələrdəki qiymətləndirmələr digər səviyyələr üçün ilkin informasiya bazası rolunu oynayır.
- I səviyyədə cəmiyyətin, ölkənin, dövlətin Milli inklüziv inkişaf indeksi (Mİİ) bir neçə istiqaməti əks etdirən altindekslərin funksiyası kimi təklif olunur (şəkil 2). İlkin variantda həmin funksiyanın xətti formada olması qəbul edilir. Başqa sözlə

$$MİI = F(Aİ, Tİ, Yİ, SV, TV) = a_1 \cdot Aİ + a_2 \cdot Tİ + a_3 \cdot Yİ + a_4 \cdot SV + a_5 \cdot TV + a_6 \cdot HV$$

- Burada Aİ – iqtisadiyyatın ən mühüm göstəricilərini xarakterizə edən ($P_{11}$ – ÜDM, $P_{12}$ – əmək məhsuldarlığı və iqtisadi artımın səviyyəsi, $P_{13}$ – inflyasiya səviyyəsi, $P_{14}$ –



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

adambaşına ÜDM, $P_{15}$ – adambaşına dövlət borcları, $P_{16}$ – əsas kapitala qoyulan investisiyalar) "Dayanıqlı güclü iqtisadiyyat" subindeksidir.

$$Aİ = F_1(P_{11}, P_{12}, P_{13}, P_{14}, P_{15}, P_{16}) = F_1(P_{11}, ..., P_{16})$$

☞ Tİ – İnformasiyalaşma və İnformasiya Cəmiyyətinin ($P_{21}$), E-hökümətin və E-xidmətlərin ($P_{22}$), institutsionallığın ($P_{23}$), innovasiya və innovativ mühitin ($P_{24}$), elm və təhsilin ($P_{25}$), bilik və texnologiyaların ($P_{26}$) tətbiqi və inkişaf səviyyəsini bildirən "Davamlı yaşıl iqtisadiyyat" subindeksidir.

$$Tİ = F_2(P_{21}, P_{22}, P_{23}, P_{24}, P_{25}, P_{26}) = F_2(P_{21}, ..., P_{26})$$

**Şəkil 1.**

**Milli iqtisadi inkişafın inklüzivlk səviyyəsini formalaşdıran altindekslər və indikatorlar (müəllif tərəfindən təklif edilmişdir)**






*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

1. İ – iqtisadiyyatın yaşıllaşdırma səviyyəsini (P31), cəmiyyətdə yaşıl təfəkkürü və düşüncə tərzini ($P_{32}$), ekoloji investisiyaların həcmini ($P_{33}$), alternativ enerji mənbələrindən istifadə vəziyyətini ($P_{34}$), resurslardan qənaətli istifadə texnologiyalarının tətbiqini ($P_{35}$), təbii resurs potensialını ($P_{36}$) xarakterizə edən "İnnovativ koqnitiv iqtisadiyyat" subindeksidir.
$$YI = F_3(P_{31}, P_{32}, P_{33}, P_{34}, P_{35}, P_{36}) = F_3(P_{31}, ..., P_{36})$$
2. SV – cəmiyyətdə sosial müdafiə mexanizmlərinin effektiv tətbiqini ($P_{41}$), məhdud qabiliyyətli əhalinin cəmiyyətə inteqrasiyası – işləyə və təhsil ala bilməsini ($P_{42}$), məşğulluq və sosial sığortaları ($P_{43}$), işsizlik və kasıblıq səviyyəsini ($P_{44}$), uşaqların və yaşlı əhalinin maddi təminatlılığını ($P_{45}$), gəlirlərin ədalətli bölüşdürülməsi səviyyəsini ($P_{46}$) xarakterizə edən "Ədalətli sosial iqtisadiyyat" subindeksidir.
$$SV = F_4(P_{41}, P_{42}, P_{43}, P_{44}, P_{45}, P_{46}) = F_4(P_{41}, ..., P_{46})$$
3. TV – cəmiyyət üzvlərinin orta uzunömürlüyünü ($P_{51}$), sağlamlıq səviyyəsini ($P_{52}$), müalicə ala bilmək imkanlarını ($P_{53}$), səhiyyənin inkişafına yönələn investisiyaları ($P_{54}$), səhiyyə infrastrukturu və tibbi sığortanı ($P_{55}$), məhdud qabiliyyətli əhalinin maddi-mənəvi təminatlılıq səviyyəsini ($P_{56}$) bildirən "Təminatlı sağlam iqtisadiyyat" subindeksidir.

$$TV = F_5(P_{51}, P_{52}, P_{53}, P_{54}, P_{55}, P_{56}) = F_5(P_{51}, ..., P_{56})$$

4. HV – milli azlıqlara, xarici vətəndaşlara, qaçqınlara, köçkünlərə humanist münasibəti ($P_{61}$), real mühitdə fiziki qüsurlu insanlara, onların cəmiyyətə fəal inteqrasiyasına tolerant münasibəti ($P_{62}$), bədii ədəbiyyat, incəsənət, mədəniyyət nümunələrində fiziki qüsurlu insanlara münasibəti ($P_{63}$), onlayn mühitdə, o cümlədən sosial şəbəkələrdə, KİV-də fiziki qüsurlu və sosial ehtiyaclı insanlara (pozitiv, neqativ) münasibəti ($P_{64}$), fiziki qüsurlu və sosial ehtiyaclı insanlara cəmiyyətin maddi-maliyyə köməkliyini ($P_{65}$), elm, texnologiya, mədəniyyət və incəsənət sahəsində fiziki qüsurlu insanların təmsil olunma imkanlarının səviyyəsini ($P_{66}$) bildirən "Cəmiyyətin humanitar tolerantlığı" subindeksidir.



$$TV = F_6(P_{61}, P_{62}, P_{63}, P_{64}, P_{65}, P_{66}) = F_6(P_{61}, ..., P_{66})$$

5. $a_1$, $a_2$, $a_3$, $a_4$, $a_5$, $a_6$ – ilkin təhlillər zamanı qəbul edilən xətti funksiyanın dəyişənlərinin müvafiq əmsallarıdır. Sonrakı dəqiqləşdirmələr zamanı isə ekspert qiymətləndirmələri yoluyla müvafiq subindekslərin ümumi indeksə (MİI) təsirinin çəki əmsalları kimi qəbul oluna bilər. Burada hesab olunur ki, əmsalların ən kiçiyi 1-ə bərabərdir. Belə olduqda hesab etsək ki, hər bir subindeks [0, 100] aralığında dəyişə bilər, onda MİI də həmin aralıqda qiymət alar və onu belə hesablamaq olar:
$$MII = (a_1 \cdot AI + a_2 \cdot TI + a_3 \cdot YI + a_4 SV + a_5 \cdot TV + a_6 \cdot HV)/(a_1 + a_2 + a_3 + a_4 + a_5 + a_6)$$
6. Beləliklə hesab etmək olar ki, MİI-nin hesablanması ayrı-ayrılıqda subindekslərin qiymətlərindən asılıdır. Ona görə də hər bir suindeksin həm regional, həm də sektorial aspektdə hesablanmasını göstərmək üçün aşağıdakıları da qəbul etmək lazımdır.
   $S_i (i = 1,2,..., s)$ i-ci $(i = \overline{1, s})$ sahə və ya sahələrarası sferanı ifadə edir.
   $R_j (j = 1,2,..., r)$ j-cu $(j = \overline{1, r})$ regionu və ya regionlararası ərazini ifadə edir. Başqa sözlə hesab olunur ki, cəmiyyət, ölkə, iqtisadiyyat s sayda $S_i (i = \overline{1, s})$ sahələrindən, r sayda $j = \overline{(1, r)}$ $R_j$ regional bölümlərindən təşkil olunmuşdur.
7. Hesab edək ki: $RI_j$ – j-cu regionun inklüzivlik subindeksini ifadə edir.
   $SI_i$ – i-ci sahənin inklüzivlik subindeksini ifadə edir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

$hr_j$ – j-cu regionu ölkə miqyasında xüsusi çəkisini ifadə edir: $0 \le \sum_j hr_j = 1$

$hs_i$ – i-ci sahənin ölkə miqyasında xüsusi çəkisini ifadə edir: $0 \le \sum_i hs_i = 1$

8. Ayrı-ayrılıqda $hr_i$-in və $hs_j$-in minimal qiymətinin aldığı indeks nömrəsini belə təyin etmək olar:

$$\min_j hr_j = hr_{j_o}, j_o \in [1, r], \qquad \min_i hs_i = hs_{i_o}, i_o \in [1, s]$$

Bundan sonra tapılan indeks nömrələrinə müvafiq olaraq yekun MİÍ-ni belə də hesablamaq mümkündür:

$$\text{MİÍ} = \sum_j \frac{hr_j}{hr_{j_o}} \cdot \text{Rİ}_j \quad \text{və ya} \quad \text{MİÍ} = \sum_i \frac{hs_i}{hs_{i_o}} \cdot \text{Sİ}_i$$

Hər bir halda subindekslərin hesablanması və qiymətləndirilməsi oxşar metodikalar və bir-biri ilə uzlaşan sosial-iqtisadi, ekoloji-texnoloji, tibbi-psixoloji göstəricilər əsasında həyata keçirilməlidir.

9. Bütün subindekslərin qiyməti [0, 100]-də dəyişdiyindən ilkin göstəricilər əsasında onların formalaşdırılması yuxarıdakı prosedura oxşar qaydaya əsaslanır. Başqa sözlə subindeksi formalaşdıran indikatorlar müqayisə olunan ölkələrin məlumatlarına uyğun olaraq ranqlaşdırılır. Yəni hər bir ölkəyə müvafiq indikatorun qiyməti, bütün ölkələrin həmin indikator üzrə qiymətləri cəminə bölünür və alınan məlumat [0, 1] aralığında olduğundan onu 100-ə vurmaqla əvvəlki haldakı kimi [0, 100] parçasında müəyyən etmək olur. Yəni ki, qəbul etdiyimiz kimi $P_{kl} \in [0,100], (k = \overline{1,6},\ l = \overline{1,6})$ k-cı subindeksi formalaşdıran *l*-ci indikator, $b_{kl}$ isə həmin indikatorun ümumi indeksə təsirinin çəkisi olarsa və $b_{kl} \ge 1$ şərti ödənərsə, onda

$$F_k(P_{k1}, ..., P_{k6}) = \frac{\sum_l b_{kl} \cdot P_{kl}}{\sum_l b_{kl}}$$

Əgər $P_{kl}^n$ n-ci ölkəyə müvafiq $(n = \overline{1, N})$ $R_{kl}$ göstəricisinin qiyməti olarsa həmin qiymətlər öz aralarındakı məlum məlumatlar əsasında ranqlaşdırıla bilər. Onda [0, 100]-də olan $P_{kl}$-ə qarşı belə bir ədəd də ($Q_{kl}^n$) təyin etmək olar.

$$P_{kl}^n \to Q_{kl}^n = \frac{P_{kl}^n}{\sum_n P_{kl}^n} \cdot 100, \text{ göründüyü kimi } \quad Q_{kl}^n \in [0,100].$$

10. $\text{Sİ}_i$ və $\text{Rİ}_j$ kimi regionlar və sahələr üzrə inklüzivlik alt indekslərinin ($\text{Sİ}_i$, $\text{Rİ}_j$) qiyməti [0, 100]-də dəyişir və onların formalaşması da (hesablanması və ya müəyyənləşdirilməsi) yuxarıdakı qayda üzrə bir-birinə oxşar prosedurlar əsasında həyata keçirilir.
    - ☞ MİÍ-nin hesablanmasında:
    - ☞ Rəqabətlilik subindeksi
    - ☞ İKT inkişaf subindeksi
    - ☞ Sahibkarlıq subindeksi
    - ☞ Biznes mühitin əlverişliyi subindeksi
    - ☞ İnstitutsionallıq subindeksi



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- İnnovasiya subindeksi
- Bilik subindeksi
- Cini əmsalı subindeksi kimi indikatorlardan da istifadə etməklə inklüzivliyin qiymətləndirilməsində nəzərə alınan göstəricilərin əhatə dairəsini genişləndirmək olar.

**Azərbaycanda inklüzivlik səviyyəsinin yüksəlməsinə təsir edən amillər**

Azərbaycanda regional inkişafın inklüziv səviyyəsinin qiymətləndirilməsi elmi-praktik və idarəetmə aspektindən mühüm əhəmiyyətə malikdir. Bunun üçün ÜDİF tərəfindən təklif olunan qiymətləndirmə metodikasının realizasiyası bir neçə mərhələdən ibarətdir.

İlk mərhələdə inklüzivliyin üç blokda qruplaşdırılan iqtisadi, ekoloji və sosial komponentləri üzrə göstəricilər sistemi formalaşdırılır.

İkinci mərhələdə təklif olunan və ya seçilmiş regionlarda göstəricilər üzrə statistik informasiyalar toplanır. Növbəti hesablama mərhələsində regionların göstəricilər üzrə reytinqləri (ən böyük qiymətə 1-ci yer, sonrakına 2-ci yer və s.) hesablanır. Regionun kompleks qiymətini almaq üçün göstəricilər üzrə müvafiq reytinq balları cəmlənir. Alınmış yekun reytinqlərə görə ranqlaşdırma aparılır - ən kiçik qiymətə ən yüksək yer verilir. Bu ranqlara uyğun olaraq müvafiq təhlilllər aparılır və regionların müqayisəli şəkildə inklüzivliyi qiymətləndirilir.

Qeyd olunmalıdır ki, ümumi daxili məhsul (ÜDM), milli gəlir (ÜMG) kimi makro göstəricilərlə xarakterizə olunan iqtisadi artım insanların yaşam tərzinə təsir göstərsə də, cəmiyyətdəki bərabərsizliyi, kasıblıq səviyyəsini azalda bilmir. Ona görə də iqtisadi artım modeli inklüziv istiqamətdə inkişaf etdirilməzsə cəmiyyətin ən az təmin olunmuş 1 milyardlıq əhalisinin 10%-lik gəlirlə təmin olunmasına yüz illərlə vaxt lazım olacaqdır. 2019-cu ildən başlayaraq Azərbaycanda cəmiyyətin inklüzivliyinin artırılması üçün əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi tədbirlər həyata keçirilir [23]. Əhalinin sosial müdafiəsi tədbirlərinin əhatə dairəsini daha da genişləndirmək məqsədilə hökumət səviyyəsində aşağıdakıların yerinə yetirilməsi nəzərdə tutulur:

- yaşa görə sosial müavinət məbləğinin artırılması;
- sosial müavinət məbləğinin əlillik dərəcələrinə görə artırılması;
- sağlamlıq imkanları məhdud uşaqlara sosial müavinət məbləğinin artırılması;
- ailə başçısını itirməyə görə sosial müavinət məbləğinin artırılması;
- beşdən çox uşağı olan qadınlara sosial müavinət məbləğinin hər uşaq üçün artırılması;
- uşağın anadan olmasına görə sosial müavinət məbləğinin artırılması;
- dəfn üçün ödənilən sosial müavinət məbləğinin artırılması;
- əlillərə və ya sağlamlıq imkanları məhdud şəxslərə qulluq üçün təqaüdün təsis edilməsi;
- müharibə veteranlarına, habelə müharibə iştirakçılarına təqaüdün təsis edilməsi;
- müharibə əlillərinə təqaüd məbləğinin artırılması;
- əmək qanunvericiliyinin sosiallığının (şikəstlərə, əlillərə, körpəli qadınlara, xəstələrə və s.qaygı) artırılması;
- şəhidlərə, hərbçilərə, qaçqınlara, köçkünlərə, Qarabağ müharibəsi iştirakçılarına güzəştlərin verilməsi;
- kasıblara ünvanlı sosial yardımların artırılması;
- imkansızlara mənzillərin verilməsi;
- subsidiyaların, biznes-kreditlərin, fondların, qrantların artırılması;
- prezidentin güzəştli təqaüdlərinin artırılması;


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- 30 min nəfər üçün ictimai işlərdə (əmək haqqı ilə) çalışmaq üçün iş yerinin yaradılması;
- çətin şəraitdə işləyənlərə güzəştlərin verilməsi;
- gəlir vergisindən azad olmalar;
- bəzi xəstələrin müalicəsinə kömək, bir çox xəstələrə pulsuz dərmanların verilməsi;
- 1 mln. dan çox məcburi köçkünə müəyyən maddi və sosial güzəştlərin verilməsi;
- gözlənilməz təbiət hadisələrindən, yanğından zərər çəkənlərə dövlət güzəştlərinin edilməsi;
- hətta qanunların şamil oluna bilmədiyi bəzi məqamlarda əhalinin müəyyən sosial qruplarına borcların silinməsi, maddi köməklərin edilməsi və s.

Təqribən 3,5 milyon əhali dövlətin maliyyə yükü 2 mlrd.dollar olan 2019-cu ildəki sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanmaqdadır. Bu, çox ciddi sosial paketin reallaşmasının mərkəzində Azərbaycan vətəndaşına göstərilən diqqət və qayğı dayanır. Ölkənin maliyyə ehtiyatları buna imkan vermişdir. Aparılan islahatlar nəticəsində ölkənin gəlirləri və büdcə gəlirləri artdıqca əhaliyə göstərilən kömək də artmaqdadır. Bu kimi tədbirlər bütövlükdə cəmiyyətin inklüzivlik səviyyəsinə müsbət təsir edir və onu yüksəldir.

**Azərbaycanda inkişafın inklüzivliyinin beynəlxalq qiymətləndirilməsi**

ÜDİF-in 2018-ci ildəki hesabatında nüfuzlu indeks sayılan "İnklüziv İnkişaf İndeksi"-nə görə Azərbaycan inkişaf etməkdə olan ölkələr arasında üçüncü yerdədir (cədvəl 1). İnklüziv indeks üzrə Azərbaycanın ilk üçlükdə qiymətləndirilməsi ölkədə əhalinin sosial vəziyyətinin digər ölkələrə nəzərən yaxşı olmasını və son illərdə həyata keçirilən sosial-iqtisadi islahatların uğurunu təsdiq edir.



**Cədvəl 1.**

**Qabaqcıl ölkələrin İnklüziv İqtisadi İnkişaf (İİİ) indeksləri**

| Seçilmiş qrupda yer №-si | Qabaqcıl ölkə iqtisadiyyatları | İİİ-nin seçilmiş qrupda qiyməti | | Seçilmiş qrupda yer №-si | İnkişaf etməkdə olan ölkə iqtisadiyyatları | İİİ-nin seçilmiş qrupda qiyməti |
|---|---|---|---|---|---|---|
| 1 | Norveç | 6.08 | | 1 | Litva | 4.86 |
| 2 | İslandiya | 6.07 | | 2 | Macarıstan | 4.74 |
| 3 | Lüxemburq | 6.07 | | 3 | Azərbaycan | 4.69 |
| 4 | İsveçrə | 6.05 | | 4 | Latviya | 4.67 |
| 5 | Danimarka | 5.81 | | 5 | Polşa | 4.61 |
| 6 | İsveç | 5.76 | | 6 | Panama | 4.54 |
| 7 | Hollandiya | 5.61 | | 7 | Xorvatiya | 4.48 |
| 8 | İrlandiya | 5.44 | | 8 | Uruqvay | 4.46 |
| 9 | Avstraliya | 5.36 | | 9 | Çili | 4.44 |
| 10 | Avstriya | 5.35 | | 10 | Rumıniya | 4.43 |

Qeyd. Cədvəl [21] əsasında tərtib edilmişdir.

"Artım və İnkişaf" subindeksi üzrə Azərbaycan insanlar arasında gəlirlərin bölünməsi üzrə Cini əmsalna görə hesabatda 28.6 balla qiymətləndirilib. Yoxsulluq üzrə indikator ölkə əhalisinin neçə faizinin 3 dollardan daha aşağı gəlir əldə etməsini göstərir. Azərbaycan bu hesabatda orta-yüksək gəlirli ölkələrə aid edilmişdir. Bu göstərici üzrə o, MDB ölkələrindən öndədir. Dövlət borcunun ÜDM-ə nisbətinə əsasən Azərbaycanın vəziyyəti hesabatda yüksək qiymətləndirilib. Azərbaycan bu göstəriciyə görə MDB və regionda liderdir. Ölkənin strateji valyuta ehtiyatları mövcuddur. Azərbaycanın iqtisadi cəhətdən fəal əhalisi məşğul və işsiz əhalinin ümumi sayını əhatə edir. Beynəlxalq indeksdə 15-64 yaşlarında iqtisadi fəal əhalinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sayı və onun 100 nəfərə düşən hissəsi əsas götürülür. Əhalinin neçə faizinin işlək olduğu və gəlir götürmək qabiliyyətinə malik olduğunu bildirən asılılıq sub-indikatoruna görə Azərbaycan 40.9% səviyyəsində qiymətləndirilmişdir. Reytinqdə Azərbaycan Latviya, Polşa, Xorvatiya, Ruminiya, Bolqarıstan, Makedoniya kimi ölkələri 0.2 – 0.5% dərəcələri ilə, qonşu Rusiyanı 0.49%, Türkiyəni 0.43%, Gürcüstanı 0.7%, İranı 0.61%, Ermənistanı 1.03% qabaqlamışdır. İnklüziv indekslər üzrə aparılan təhlillər həm beynəlxalq, həm də ölkə səviyyəsində cəmiyyətin və iqtisadiyyatın inklüzivliyini bir daha təsdiqləyir

**Nəticə**

Müasir dövrün cəmiyyəti və ona uyğun iqtisadiyyat inklüzivlik səviyyəsinin yüksəldilməsi istiqamətində inkişaf etdirilməlidir. İnklüzivlik səviyyəsinin tənzimlənməsi üçün qiymətləndirmələr aparılmalı və təhlillər edilməlidir. Müvafiq analiz indikatorları və metodikaları işlənilməlidir. İnklüzivlik səviyyəsinə təsir edən amillər kompleks şəkildə araşdırılmalıdır. İnklüzivlik səviyyəsinə təsir edən innovativ texnologiyalar daha geniş tətbiq olunmalıdır. İnklüziv ölkə iqtisadiyyatının maddi-mənəvi resurslarının, texnologiyalarının, sistemlərinin təhlükəsizliyinə yalnız sistemli yanaşma əsasında nail olmaq olar. Burada həm qanunvericilik aspektində inzibati mexanizmlərdən, həm təşkilati effektiv tədbirlərdən, həm də müvafiq müasir texniki vasitə və texnologiyalardan kompleks şəkildə istifadə olunmalıdır. Beynəlxalq təşkilatların təklif etdikləri metodologiya əsasında həyata keçirilən qiymətləndirmələr nə qədər əhəmiyyətli olsa da, onlar real iqtisadi prosesləri tam əks etdirə bilmir. Ona görə də iqtisadiyyatın və cəmiyyətin müxtəlif aspektlərini, inkişaf xüsusiyyətlərini nəzərə almaqla müxtəlif metodologiyaların işlənilməsi zəruridir. Məqalədə təklif olunan metodologiya eksperimental olaraq aprobasiya olunmuşdur. Gələcək tədqiqatlarda metodologiya əsasında müvafiq kompüter modellərinin işlənilməsi və onun real beynəlxalq statistika əsasında reallaşdırılması planlaşdırılır. Ölkə miqyasında təklif olunan istiqamətlərdə müvafiq araşdırmaların aparılması və tədbirlərin həyata keçirilməsi cəmiyyətin inklüzivlik səviyyəsinin yüksəldilməsində böyük potensialların aşkara cıxarılmasına şərait yaradacaqdır.



## Ədəbiyyat


1. Development Concept "Azerbaijan - 2020: Outlook for the Future”. Baku, 2012, www.president.az
2. Jonasson Charlotte, Lauring Jakob, Guttormsen David S. A. Inclusive management in international organizations: How does it affect local and expatriate academics? Personnel review. 2018, vol.47, issue 2, pp.458-473.
3. Симакова Л.Д., Казимирский М. Экономическая устойчивость стран большой g20 и инклюзивный рост. Инновации и инвестиции. 2018. № 6. С. 94-97.
4. Григорьев Л. Азербайджан: Ресурсная модель экономического роста. Бюллетень о текущих тенденциях мировой экономики. Аналитический центр при провательстве РФ. Выпуск №39, декабрь 2018, стр.16
5. Mazur Anatolii, Kubai Oksana. Scientific-methodological and practical principles of regional economic systemsintegration. Baltic journal of economic studies. 2019, volume 5, issue 2, pp.117-123.
6. Папава В. О кризисе в экономической науке и путях выхода из него. Ж., Экономика Украины, №10, 2018, стр.32-52.
7. Alguliyev R.M., Aliyev A.G., Abbasova V.A. The study of formation characteristics and development tendencies of international information and knowledge economy. Review of knowledge economy. 2017, vol.4, No.1, pp.7-14.


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

8. Вишняков М.А. От концепции устойчивого развития к инклюзивному зеленому росту. Экономика и предпринимательство. 2018. № 6 (95). С. 149-156.
9. Лясковская Е.А., Григорьева К.А. Рейтинг инклюзивного развития макрорегионов Российской Федерации. Вестник ЮУрГУ. Серия Экономика и менеджмент. 2018. Т. 12, № 2. С. 45–54.
10. Pouw N., Gupta J. Inclusive development: a multi-disciplinary approach. Current Opinion In Environmental Sustainability. 2017. Volume: 24, pp.104-108.
11. Gupta Joyeeta, Pouw Nicky. Towards a trans-disciplinary conceptualization of inclusive development. Current opinion in environmental sustainability. 2017, vol. 24, pp.96-103.
12. Songping Zhu and Azhong Ye. Does foreign direct investment improve inclusive green growth? Empirical evidence from China. Economies 2018, 6, 44; doi:10.3390/economies6030044 www.mdpi.com/journal/economies
13. Aoyama Yuko, Parthasarathy Balaji. When both the state and market fail: inclusive development and social innovation in India. Area development and policy. 2018, vol.3, issue 3, pp.330-348.
14. Andersen Allan Dahl, Andersen Per Dannemand. Foresighting for inclusive development. Technological forecasting and social change. 2017, vol.119, p.227-236.
15. Ewa Cichowicz and Ewa Rollnik-Sadowska. Inclusive growth in CEE countries as a determinant of sustainable development. Sustainability 2018, 10, 3973, pp.1-23.
16. Ng Boon-Kwee, Kanagasundram Thiruchelvam, Wong Chan-Yuan et al. Innovation for inclusive development in Southeast Asia: the roles of regional coordination mechanisms. Pacific review. 2016, vol.29, issue 4, pp.573-602.
17. Kartseva, V. V.; Remnova, L. M. Conceptual bases of financial controlling in the Ukrainian system of consumer cooperatives in the context of the inclusive development paradigm. Scientific bulletin of polissia. 2017. Issue: 3. Pages: 113-118
18. Bogolib, Tetiana. Ensuring smart, sustainable, inclusive development of the regions of Ukraine in the conditions of structural crisis. Baltic journal of economic studies. 2016. Volume: 2. Issue: 3. Pages: 10-16
19. Черкасов В.В., Жданов Д.А. Инклюзивное развитие России: факторы промышленного роста. Экономические науки. 2018, № 7(164), с.35-40.
20. Sharafutdinov Rustam, Gerasimov Vladislav, Akhmetshin Elvir et al. Inclusive development index in Russia: analysis, methods, possibility of application. National academy of managerial staff of culture and arts herald. 2018, isue 2, pp.1-4. https://www.un.org/sustainabledevelopment/globalpartnerships/.
21. The Inclusive Development Index 2018. World economic forum, 2018. https://www.weforum.org/events/world-economic-forum-annual-meeting-2018/?tab=LiveBlogs&stream=day-before-davos&stream-item=inclusive-development-index-2018.
22. Əliyev Ə.Q. İqtisadi inkişafın inklüzivlik səviyyəsinin yüksəldilməsində İKT və onun təhlükəsizliyi problemləri // “İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri” IV respublika konfransı. Bakı. 14 dekabr 2018, səh-185-189.
23. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 31 may 2018-ci il. https://president.az/articles/29521.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Аловсат Гараджа оглы Алиев***

***Вопросы оценки уровня инклюзивности национального экономического развития***

***Аннотация***

*В статье рассматриваются вопросы сущности инклюзивности развития национального общества и экономики, а также ее оценки и повышения. Были интерпретированы значение и особенности инклюзивного развития общества и экономики. Был проведен анализ доступных научных исследований по вопросам инклюзивного развития. Были исследованы вопросы инклюзивной оценки уровня формирования общества и экономики на национальном и международном уровнях. Предложены новые индикаторы и субиндексы, характеризующие инклюзивный рост общества. Проанализированы вопросы оценки индексов национального инклюзивного роста на международном уровне в Азербайджане. Интерпретирована методологическая основа для оценки уровня инклюзивности, и была разработана соответствующая методология. Были показаны факторы, влияющие на уровень инклюзивности экономического развития и даны некоторые рекомендации.*

***Ключевые слова***: *инклюзивность экономического развития, экономический рост, индекс и уровень инклюзивности, индикаторы инклюзивности, оценка инклюзивности, проблемы инклюзивности*

***Aliyev Qaraca Alovsat***

***Questions of the evaluation of the level of the inclusiveness of national economic development***

***Abstract***

*The article examines the essence of the inclusiveness of the development of the national society and economy, as well as its assessment and improvement. The meaning and characteristics of the inclusive development of society and the economy were interpreted. An analysis of available research on inclusive development was carried out. The issues of inclusive assessment of the level of formation of society and the economy at the national and international levels were investigated. Proposed new indicators and sub-indices characterizing the inclusive growth of society. Analyzed the issues of evaluation of indices of national inclusive growth at the international level in Azerbaijan. The methodological basis for assessing the level of inclusiveness was interpreted, and a corresponding methodology was developed. Factors influencing the level of inclusiveness of economic development were shown and some recommendations were made.*

***Keywords***: *inclusiveness of economic development, economic growth, index and level of inclusivity, indicators of inclusivity, assessment of inclusivity, problems of inclusivity*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.07.2019.***
***Çapa qəbul olunub: 15.07.2019.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az